Ədəbiyyat qəzeti

HEKAYƏ

**Dua etməyə başlayıram, simlərim, pərdələrim, gümüş naxışlarım, sədəf düzmələrim eyni duanı oxuyur: Səsimiz vətən bizim! Səsimiz bu torpaqlardan əskilməsin, yarəb!**

# Xocalıda qalan tar



İmdat AVŞAR

*... Külək fitləyə-fitləyə gecəni arşınlayır, qan donduran şaxta boş, səksəkəli küçələri mühasirəyə alır. Şəhər narahat bir yuxuda, itlər isə aramsız ulayır... Gecənin qar dənələrində əks olunan ulduz üzü pərdələri azca aralanmış pəncərədən içəri boylanır. Sədəf və gümüş naxışlarımın şəbəkələrə ilişmədən tül pərdənin zərif məsamələrindən keçən Ay işığını əks etdirdiyi otağın kirəc suvaqlı bayaz divarındakı şəfəqlər buluq başında oynaşan pəri qızlarını andırır...*

Tellərim birdən ürpənir, bədənim əsir, çanağımı bürüyən libasım sızlayır və pərdələrim titrəyir. İçimdən hicrana batmış sevda musiqiləri keçir, susur, ifa edə bilmirəm...

Hər gecə kimsənin eşidə bilmədiyi, çox uzaqlardan gələn bir səsə qulaq verərək göylərə açılan bu pəncərədən ulduzları seyr edirəm. Qaçışan ilxıların dırnaqlarının səslərinə köklənən bu səslərdə, qopuz atanın dilləndirdiyi cəng havasını dinləyirəm. Bu səslər, bu pəncərə və göy üzünün pəriləri olmasa, aylardı asılı qaldığım bu divarda yalqızlıqdan səssizcə ölüb gedərəm...

Külək getdikcə güclənir və bağçadakı tut ağacının quru budaqlarını hirslə cırmaqlayır, silkələyir. Pəncərəmin şüşələri və şəhər itlərinin nizamsız səsləri də bu uğultulu musiqiyə qarışıb. Bu, hər gecə dinlədiyim, nal səslərinə və madyanların dırnaqlarına köklənmiş səsləri batıran və qulaqları cırmaqlayan bir nəğmə, uyarsız, uğursuz səslərdi... Soyuq bir külək dolur içimə, bu soyuq çanağımdakı bütün oyuqlara, bütün çıxıntılara sirayət edir, daxilimdə buz kimi bir əl dolaşır, üşüyürəm, hətta taxta vücudumun cırıldamasını eşidirəm...

İllərin bir kamançası ilə birlikdə şairlər məclisində qanadlandırdığımız nəğmələri arzulayır, xəyalımа duyğulu ürəklərdə mayalanmış sevdalı sözlər gəlir, içim birdən istilənir... Bəm telimdə bir sızıltı başlayır, sızlayan telimdən dəm alaraq "Segah", ya da "Bayatı-şiraz" məqamında bir muğam dilləndirmək istəyirəm... Sonra divardan asıldığımı görüb çarəsiz susuram, aylardı tellərimə mizrab dəymir...

Bayırdakı uğultulu səslərə uzaqlardan, lap uzaqlardan göy gurultusuna bənzəyən qorxulu səslər qarışır. Səsləri ayırd etməkdə qulaqlarım çox mahirdi. Uzaqlarda can verənlərin iniltisini də eşidirəm, amma kimsəyə bir söz demirəm. Hər gecə cəbhəyə gedən sahibimə və onun yoldaşlarına dualar edirəm... Nə xəbərlə açılacaq bu cür gecələrdə içimi ucsuz-bucaqsız bir kədər bürüyür, ovunmaz bir ağıya, yozulmaz bir qorxuya qapılıram. Sanki qorxunc rüzgar köksümdə gərilmiş telləri darayıb keçir, bədənimdə kimsənin eşitmədiyi incə bir sızıltını coşdurur, illərdən bəri qalan bir yaranı qanadır və içimdəki əzəli sevda məni alıb çox uzaq bir diyara aparır...

Dəli küləklərin əsdiyi bu diyarda tellərimin dost olduğu, amma mənim unutduğum qopuz atadan qalma bir musiqini eşidən kimi oluram. Bu musiqini bir at ilxısının çobanı çalır, qopuzu qurd başlı bir çoban... Bir musiqi ki, Qıpçaq çölündə bir at ilxısı kimi dördnala çapır içimdə... Bir musiqi ki, hər notu dəli bir day olur, yüzlərlə, minlərlə dırnaq bir yerə eyni ritmlə vurur, yerdən eyni ritmlə qalxır, ucalır...

... Düzənliyi yandırıb-yaxan isti yay gecələrində mənim qaldığım otağın pəncərəsini tamam açıq qoyurdular. Bir əsim külək üçün aralanan pəncərədən yay gecələrinin ulduzlarını seyr edir, simlərimdə oynaşan və dağlanmış gövdəmə dolan arzulu, sevincli eşq türkülərini toplayırdım. Halbuki indi çox üşüyürəm, sevda türkülərini unutdum, nəsə baş verəcəkmiş kimi simlərim gərilir. Hüznlü, kədərli, inləyən ah-zar səsləri dolur içimə. Bu cür gecələrdə simlərimə toxunan mahir bir mizrab olsa, heç bir musiqi alətinin bacarmadığı kimi səslənər, heç bir insan səsinin çata bilməyəcəyi, dilə gətirə bilməyəcəyi bir fəryadla ağlayardım...

Göy gurultusuna bənzəyən səslər hər gecə bir az daha yaxınlaşır. Şəhər artıq daha narahat, səksəkəlidi. Tərpənir, əzabla qıvrılır, gecə sancılı, gecə həyəcanlı, hamilə... Bətnində sanki bəla böyütmüş. Gecənin həyəcanı evimizi bürümüş, üç uşaqlı evimiz tikan üstündədi. Ana qorxur, uşaqlar hürkək, ağaclar çılpaq, itlər səbirsiz... Mən isə bu divarda yalqızam. İçimdən qəribə, dəli, bayğın, coşqun... eşqə, ayrılığa, kədərə, ölümə köklənmiş necə bəstə keçsə də, sinəmə mizrab vuran, tellərimi darayan, çanağıma çəkilən pərdəni tir-tir titrədən, hisslərimi nizama salan, musiqiyə çevirən o mahir əllər yoxdu...

Məni hər axşam bağrına basan və içimdəki kədəri, sevinci boşaldıb sonsuz düzlərə yayan məharətli əllərin sahibini gözləyirdim. Onu qorxunc səslərin yaxınlaşdığı bir axşam gətirdilər. Hər yeri qan içində, hərəkətsiz, səssizdi... O gecə mənim otağımda qaldı. Alnına düşən Ay işığı, üzündəki dərin yaralardan xəbər verirdi. Sanki bədəninin bir tərəfi yoxdu. Küləyin köməyi ilə başımı sağa-sola döndərsəm də, tellərimi darayan o mahir əli görə bilmirdim. Pərdələrimdə dolaşan digər əli isə donmuş, daşlaşmışdı. İndi o itən əl simlərimə bir mizrab vursa, bu daşa dönmüş əlin barmaqları da vurulmuş bir sərçə kimi pərdələrimdə çırpınsa, içimdən qopan səs dünyaya vəlvələ salar, Surun (İsrafilin tütəyi) nərəsinə dönən səsim qiyamət gününü qopardı...

**İndi bir "Segah"la qəzələ yol göstərib, bir xanəndənin ürək dağlayan ecazkar səsinə qoşulmaq və bir hüznə pərdə-pərdə yoldaşlıq etmək istəyirəm.**

Susuram, bütün ağıları içimə gömürəm. Simlərimə toxunacaq bir əl axtarıram. Simlərimi divara sürtüb gövdəmdə toplanan acıları səsə, bağırtıya, fəryada çevirmək və məni boğan bu kədərdən qurtarmaq istəyirəm. Olmur... Sanki kabuslarla dolu bir röyadayam. Boğazım cırılınca bağırıram, amma səsimi özüm belə eşidə bilmirəm...

... O səhər məni acı-acı inlədən həmin əllərin sahibi getdi... Cansız bədənini, dağlanmış əlini, yaralardan yaxşı seçilməyən üzünü bəyaz bir bezə bürüyüb, bir qutuya qoyaraq, əvvəllər heç eşitmədiyim fəryadların, bağırtıların müşayiətilə götürdülər. Məni hər gecə bağrına basan, tellərimi oxşayan, pərdələrimdə gəzişən, içimdə yığılan dərdi səsə çevirən o adam mənimlə vidalaşmadan səssizcə çıxıb getdi və bir daha geri dönmədi. O cəbhəyə gedəndən bəri mən bu divardan heç enmədim. Bir mıxdan asılı, səsinə həsrət və lap yalqız yaşayıram. Yayda çıxardıqları çexolumu, libasımı da qaytarıb geyindirmədilər, çox üşüyürəm. Soyuqdan gərilən simlərim elə köksüz, elə nizamsız, elə pərişandı ki...

İsti bir sinəyə baş qoymağı və içimdəki fəryadı simlərimdə dilləndirmək üçün çox darıxdım. Ancaq itən, qeyb olan səsim birdəfəlik içimdə boğuldu... Bəzi gecələr əski günləri yad edir, o nizamlı səsimi xatırlayıram. Bu halımla yenə o dərdləri dilə gətirə, o səsləri çıxara bilərəmmi, bilmirəm.

Allahım! Bir tarın öz səsinə həsrət qalması nə qədər acıdı...

Bir məclisdə musiqiyə ara verilərkən mənimlə yan-yana duran qədim bir tarın sözlərini xatırlayıram: "... Qətliamlar, məhbuslar, sürgünlər... Bir cüt söz, həyatın bahasınaydı. Bütün şairlər, şərqilər susmuşdu... Nəğmə qırğını iliydi! Bizim səsimizə də dözüm göstərmədilər, bizi də qadağan etdilər... Bütün məclislərdən qovulmuşduq, bir müddət divarlarda bükülü qaldıq... Səsimiz, nəğmələrimiz güllələnmişdi... Öz yurdumuzda əsirdik... "Oxu, tar", deyib bizi yenidən məclislərə dəvət edən bir şairin şeirini sahibim gizlicə oxuyurdu. O şair güllələnəndə məni səhərəcən çalmışdı, ən kədərli nəğmələri oxumuş və səhərəcən ağlamışdıq..."

Mənimsə birlikdə ağlayacağım bir sahibim, dərdimi bölüşəcəyim bir könül həmdəmim yoxdu!

İndi bir "Segah"la qəzələ yol göstərib, bir xanəndənin ürək dağlayan ecazkar səsinə qoşulmaq və bir hüznə pərdə-pərdə yoldaşlıq etmək istəyirəm. Səsim, bağırtım, fəryadım, ah-fəğanımçün darıxdım. İçimdəki əzablı səsləri simlərə tökən, məni sinəsinə basan və inləyən tellərimin içdən gələn melodiyalarını göy qübbəsinə salan əllər yoxdu...

O əllərin sahibi getdi və o gündən bu yana evimizdə yas havası var. Evin anası yasa batdı və bundan heç qurtula bilmədi. Uzaqlardan qorxulu səslər gələndə bu şəhəri tərk etməkdən söhbət açır. Çəkidə yüngül, qiymətdə ağır nə varsa, hamısını götürüb getməkdən... Bir gecə qəfildən gedəcəklərindən, məni burada yalqız buraxacaqlarından qorxuram. Əslində tənhalıqdan deyil, düşmən əlində qalmaqdan qorxuram, içim titrəyir...

* * *

Gecə yarısı, ulduzları seyr edərkən yuxulamışam... Qorxuyla oyanıram. Göy gurultusuna bənzəyən səslər heç bu qədər şiddətli olmayıb. O yad səslər top gülləsi, raket mərmisi və güllə olub şəhərin üstünə yağır. Mən bildiyim bütün səsləri, müşayiət etdiyim bütün muğamları, çaldığım bütün musiqiləri udur və səsimi tamam unuduram... Dua etməyə başlayıram, simlərim, pərdələrim, gümüş naxışlarım, sədəf düzmələrim eyni duanı oxuyur:

Səsimiz vətən bizim! Səsimiz bu torpaqlardan əskilməsin, yarəb!

* * *

... Sonra yüksələn alov azğın dillərini evlərə uzadır, bir atəş tufanı başlayır, ardınca bir vəlvələ qopur... Uyumaq və ayılmaq, ölmək və dirilmək kimi bir şey! Qəflət yuxusundan qorxunc səslərlə hürkərək oyanan və yarı çılpaq küçələrə tökülən insanlar şəhəri məşhər yerinə döndərirlər. İt ulartısına qarışan uşaqların çığırtıları, balasını axtaran anaların fəryadı... Göymü yarıldı, yermi dağıldı, bilmirəm. Qulaqları batıran partlayışların ardınca yüksələn nəhəng alovlar bir anda qosqoca evləri udur. Şəhərin hər bölgəsində yanmağa başlayan bu cəhənnəm ocaqları bayram ərəfəsində çatılan tonqallara, evləri udaraq böyüyən yanğınlarsa Novruz atəşlərinə heç oxşamır...

İnləmək, ağlamaq istəyirəm, amma qorxudan səsimi uduram, səsim çıxmır... Şuşa dağlarından Aran Qarabağa yayılan və bu torpaqların dili olan, vətən olan səsimi yadıma salmağa çalışıram, yox, alınmır...

Qorxu dolu uşaq çığırtıları və balasını itirən anaların fəryadları dəli rüzgara qarışaraq göylərə yüksəlir, sonra bütün səslər donur və qan içində yerə düşür... Şəhərin üzərində elə bir güllə yağışı var ki, bağırtılar, fəryadlar, Allaha uzanan əllər, Haqqa yönələn dualar da havada vurulur...

Evin anası yarıyuxulu əl havasına balaca qızını axtarır. Qonşu evi bürüyən alovun işıqlandırdığı otaqda mənim kimi səsini udmuş kiçik qızını tapır. O qızın gözlərindəki qorxunu ifadə edəcək səs mənim simlərimdə və pərdələrimdə yoxdu... Qadın qızını qucaqlayıb başının hayında olan oğluyla göz-gözə gəlir. Qapı açıqdı, alovun işığında onların gözlərindəki dəhşəti açıq-aşkar görürəm. Baxışlarıyla anlaşırlar və sürətlə evdən çıxıb qaçmağa başlayırlar. Bir azdan alovlar arasında çığıra-çığıra qaçan və can təlaşıyla yerə yıxılanları tapdalayaraq gedən adamlara qarışırlar..

Bir anda qədim tarın söylədiklərini düşünürəm: "... Nəğmə qırğını iliydi! Yurdumuzdan sürülmüşdük... Səsimiz, nəğmələrimiz güllələnmişdi... Öz yurdumuzda əsirdik..."

Bu yeni bir sürgündü! Yeni bir nəğmə qırğını! Ata oğulu tanımır, qardaş qardaşı... Adamlar məqsədsizcəsinə partlayaraq yeri dağıdan o güllələrdən bacardıqca uzaqlaşmaq üçün qaçışırlar. Fəqət onların on dəqiqəyə qət etdikləri məsafəni güllələr bir-iki saniyədə qət edir, can hayıyla ölümdən qaçanlar bir tərəfə yetişmədən qan içində qara yuvarlanırlar...

Sahibim getdiyi gün ümidimi evin yeniyetmə dəliqanlısına bağlamışdım. Bir gün atası kimi mənim simlərimi oxşayacağına, mənim dərdlərimi dilə gətirəcəyinə inandığım dəliqanlının arxasınca baxıram. Gənc, çevik, yay kimidi, çox sürətli qaçır... O, bu cəhənnəmdən qurtulacaq! Bir gün geri dönüb bu yurdu da, məni də bu tənhalıqdan, əsarətdən xilas edəcək! Mənə qopuz atadan miras qalan səsimi xatırladacaq, səsim bu torpaqlarda sonsuzadək səslənəcək!

Allahım, sən onu qoru!

... Dualar kimi, ümidlər də güllələnirmiş, ilahi! Yeniyetmə birdən yerə yıxılır, bir neçə metr sürünür və ayağa qalxmağa çalışır, amma hər qalxanda ağzı üstə yerə qapanır, sanki vətən torpağını öpür bu dəliqanlı, torpaqla vidalaşır... Qorxunc səslərin ardınca vurulan insanlar yerə yıxılır, bağırtılar içində yıxılanları qaldırmağa gələnlər də yıxılırlar... Körpə bədənlərdən axan qanlar qar üstündə donub qalır, günəş doğanda qar çiçəklərinə dönəcəklər...

Şah pərdəmdə yığılan hüznü, dərdi, acını heç bir saz, heç bir sim, heç bir şair, heç bir aşıq dilə gətirə bilməz... Böyük bir acını dilə gətirmək üçün yaşamaq lazımdı... Gövdəmi oyan, səslərə yol açıb dağlayan, ürək pərdəsini çanağıma gərən, xərəyimi taxan və simlərimi bağlayan ustanın əlindən çıxdığım o gündən bu yana müşayiət etdiyim, yol göstərdiyim, fəryadına qoşulduğum heç bir muğamda belə bir hüzn, acı, tale yoxdu, eşitməmişəm...

Bu acını dilə gətirmək, telimdə səsləndirmək istəyirəm, amma qorxudan yüz illərdən bəri bütün bunların öhdəsindən gələn səsimi unuduram, səsim itib, səsim yoxdu...

* * *

... Sonra bütün səslər kəsilir. Dörd bir yan qan qoxuyur. Günəşin ilk şəfəqləri qar üstündə donan qan ləkələrinə düşür, qızıl qanları əks etdirən şəfəqlər üfüqləri də qızıla boyayır. Günəş utandığından qızarır, üfüqlər xəcalətli... Hər tərəfdə qar çiçəkləri, qan çiçəkləri...

Yad adamlar leş qarğaları kimi evlərə daraşırlar. Təpiklə qapını vuran adam mənim qaldığım otağa soxulur, baş verənləri görməmək üçün gümüş naxışlarımı, sədəf düzmələrimi yumuram. Adam əlindəki tüfəngin süngüsü ilə hər yeri deşir, otağı xırman yerinə döndərir, şkaflara, siyirmələrə baxır... Axtardıqlarını tapmır, əşyaları təpikləyir və sonra başını yuxarı qaldırır. Gümüş naxışlarımı yenidən açıram, göz-gözə gəlirik. Mən insan gözlərində belə kin, belə nifrət görməmişəm... Axtardığını tapmayında quduza dönür. Məni divardan endirir, qaba əlləri gövdəmi incidir. Sağıma-soluma göz gəzdirir və yerdən tapdığı sərt bir cismi simlərimə kobud şəkildə vurub qəhqəhəylə gülməyə başlayır. Düşmənin zəfərinə yoldaşlıq etmək istəmirəm. Aylardı üşüyən, gərilmiş, nizamsız tellərimi yaxşıca sıxıram, onun istədiyi səsləri çıxarmıram. İstəyirəm məni yerə vursun, qırsın, parça-parça etsin və axıradək susum...

İlahi! Məni düşmənə yoldaşlıq edən tarlardan eləmə!

... Sonra başımı bərkdən divara çırpır... Qulaqlarım heç belə uğuldamamışdı, nələr olduğunu anlamağa çalışıram. Sədəf gözlərimi açıram ki, hələ bu adamın əlindəyəm. Gümüş naxışlarım yerə səpələnib... O an min illərcə özümdə saxladığım sirrim çözələnir, ömrüm boyunca müşayiət etdiyim bütün nəğmələr otağa tökülür... Saqqallı adam məni yerə atır və biz türklərə ağır söyüşlər söyür... Simlərimlə gövdəmin parçalarını topalamağa çalışıram. Hər yerim əzik, çatlaq, qırıq, taqətim qalmayıb...

... Sonra yerə tökülmüş gözlərimlə ətrafımı seyr edirəm. Şəhər kimsəsiz, səssiz, bomboş, insan səsi eşidilmir... Tanış bir səs var, itlərin səsi! Ətrafda heç kim qalmamış, yerdə sürünürəm, indiki yalqızlığım divardakı tənhalığıma bənzəmir. Sədəf düzmələrim və gümüş naxışlarım yavaş-yavaş parlaqlığını itirir, gözlərim qaralır, sazağa rəğmən simlərim boşalır, dağılır, qopur birbir... Son nəfəsimdə dinlədiyim musiqiləri eşidirəm yenə, minlərlə atın dırnaq səslərini... Atalarının qəbri üstə at səyridərək onların ruhundan kömək uman şahzadələri düşünürəm. Atalarımın ruhu dolaşır başımda, bu torpaqlardakı səsimizin yüz illər sonraya qalması üçün hayqırmaq istəyirəm, amma səsimi unutmuşam səsim qalmayıb!

... Sonra birdən öz-özünə titrəyən simlərimdə Qorqud atanın qurd başlı qopuzunun səsi əks-səda verir...

"Oxu tar! Oxu tar! Səni kim unudar!"

*Türkiyə türkcəsindən uyğunlaşdıran:*

**Eyvaz ZEYNALOV**

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 25 fevral.-S. 5.**